**Humay EMİNOVA**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun "İnformasiya cəmiyyətinin fəlsəfəsi və sosiologiyası" şöbəsinin elmi işçisi*

# MÜASİR DÖVRDƏ AZƏRBAYCAN CƏMİYYƏTİNDƏ QADINLARIN YERİ VƏ FƏALİYYƏTİ

*Azərbaycan xalqı həmişə qadına, onun cəmiyyətin həyatında oynadığı rola, tutduğu yüksək mövqeyə böyük hörmətlə yanaşmışdır. Xalqın ən aziz, qiymətli və müqəddəs hesab etdiyi vətən, torpaq, dil anlayışları ana adı ilə bərabər tutulmuşdur.*

***Heydər Əliyev***

Qadın problemi ta qədimdən başlayaraq dövrümüzə qədər bəşəriyyətin daim məşğul olduğu ən ağrılı və ən aktual problemi olmuşdur. Qadının cəmiyyətdə və ailədə rolu, qadın azadlığı, qadın hüququ, qadın təhsili, qadın həyat tərzi, qadına qarşı zorakılıq, qadın maraqlarının qorunması diqqət mərkəzində olmuşdur. İnsan hüquqları çərçivəsində qadın hüquqlarına riayət olunması qadınların imkanlarının genişlənməsini, onların ictimai həyatın bütün sahələrində bərabərlik əsasında iştirakını tələb edir. Qadın hüquqları insan hüquqlarının tərkib hissəsidir: "...Qadının cəmiyyətdəki rolu, onun tam azad olması, bütün ayrıseçkilik formalarının aradan qaldırılmasının imkanları və yolları, qadının bütün mülki, iqtisadi və sosial hüquqlarına görə kişi ilə bərabərləşdirilməsi, nəhayət, özünəməxsus qadın maraqlarının qorunması məsələsi bugün üzə çıxmamışdır. Bütün bu problemlər indi – XXI əsrin başlanğıcında da aktual məsələlər olmuşdur".[1]



Yerləşdiyi coğrafi məkan etibarilə həm Şərq, həm də Qərb dəyərlərini özündə ehtiva edən Azərbaycan unikal bir ölkədir. Dünyanın geosiyasi xəritəsində özünəməxsus yeri olan ölkəmizdə qadına daim yüksək ehtiram bəslənmiş və o, uca tutulmuşdur. Azərbaycan qadını öz zəkası, müdrikliyi, sədaqəti, qəhrəmanlığı, vəfası, yüksək analıq keyfiyyətləri ilə hər zaman xalqımızın adını yüksəldib. Azərbaycan tarixinə nəzər salsaq görərik ki, cəmiyyətin inkişafının bütün mərhələlərində və müxtəlif sahələrində qadınlar kişilərlə bərabər dövlət quruculuğunda, siyasi qərarların verilməsində fəal iştirak etmişlər. Dünya mədəniyyəti xəzinəsinə nadir incilər bəxş etmiş xalqımızın mənəvi dəyərlərinin formalaşmasında və inkişafında qadınlarımızın böyük rolu olub. Eyni zamanda, Azərbaycan qadınları tariximizin bütün dövrlərində xalqımızın taleyüklü məsələlərinin həll edilməsinə öz sanballı töhfələrini vermişlər. Tomris, Sara xatun, Möminə xatun, Mehrican, Tuti Bikə, Nüşabə, Nigar, Həcər və onlarca, yüzlərcə qadınlarımızın adları bugün də tarixlə qoşa çəkilir. Azərbaycan qadını istər Xalq Cümhuriyyəti dövründə, istərsə də sovet hakimiyyəti illərində yaradılan imkanlardan xalqın, dövlətin, cəmiyyətin mənafeyi naminə çox səmərəli istifadə edib.

Azərbaycan qadınlara müasir tələblərə uyğun siyasi, iqtisadi və mədəni hüquqların verildiyi ilk müsəlman dövləti olmuşdur. Ölkəmizdə milli qadın siyasəti hələ XX əsrin əvvəllərində, yəni Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət statusu almışdır.

---

[1] L.Mövsümova. Azərbaycan qadını uzaq keçmişdən indiyədək. B., 2002, s.264.

Həmin dövrdə ilk dəfə olaraq müsəlman Şərqində qadına seçmək və seçilmək hüququnun verilməsi tarixi nailiyyət hesab olunurdu. Bununla da nəinki Şərqdə, hətta demokratiyanın beşiyi sayılan bir sıra Avropa ölkələrindən və ABŞ-dan əvvəl qadına cəmiyyət həyatında siyasi proseslərə qoşulmaq hüququ verilmişdir.

XX əsrdə yüzilliklərə bərabər inkişaf yolu keçmiş qadınların cəmiyyətdə və ailədəki mövqeyində köklü dəyişikliklər baş vermişdir. Son illər gender sahəsində mühüm hadisələr izlənilir ki, bu da Azərbaycan cəmiyyətində mövcud ictimai-siyasi hadisələrdə meydana çıxan dəyişikliklərlə bağlıdır. Dövlətimizin müstəqillik əldə etməsi, ictimai-siyasi quruluşda gerçəkləşən dəyişikliklər cəmiyyətin sosial strukturunda bir sıra əhəmiyyətli yenilikləri şərtləndirir. Bunun əsasında isə Ulu öndər Heydər Əliyevin əsas prinsiplərini formalaşdırdığı dövlət qadın siyasəti durur. Xalqımızın hüquq və azadlığını daim qorumuş, onun milli şüurunun formalaşmasında, maariflənməsində böyük xidmətlər göstərmiş Heydər Əliyev hansı dövrdə işləməsindən asılı olmayaraq qadın hərakatını, qadınlarla bağlı məsələləri daim diqqət mərkəzində saxlamışdır. Ulu öndər demişdir: "Azərbaycan qadınları xalqımızın adət-ənənələrini, mədəniyyətini, mənəviyyatını, elmini, intellektual potensialını yüksək səviyyədə təmsil etmişlər və bu, indi də belədir. Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bugünümüzün, gələcəyimizin dayağıdır".[2] Ulu öndərin bu dəyərli kəlamı müstəqil Azərbaycanın həyatında qadınların roluna dövlət səviyyəsində verilən yüksək qiyməti əks etdirir.

Bütün çıxışlarında Azərbaycan qadının tarixən keçib gəldiyi böyük və şərəfli yoldan, onun yaradıcı dühasından qürurla söz açan Ulu öndər, həyatın müxtəlif sahələrində çalışan qadınlarımızın elmi fəaliyyətini, əməyini diqqətlə izləmiş, onların hüququnun

[2] www/ heydaraliyev.preslib.az/ Heydər Əliyev. Elektron sənədlər toplusu.



qorunmasında əlindən gələn köməyi əsirgəməmişdir. Ulu öndər qadınlar haqqında çox müdrik fikirlər söyləmişdir: *"Cəmiyyətdə qadınların üzərinə daim çox böyük vəzifələr düşür, onların işi həmişə ağırdır. Ancaq onlar bu vəzifələri şərəflə yerinə yetirir və həmişə olduğu kimi indi də cəmiyyətdə aparıcı rol oynayırlar".*[3]

Qadın bəşəriyyətin tərbiyəçisi, ailənin tərbiyə ocağıdır. Qadın bu kiçik cəmiyyətin – ailənin əsas sütununu təşkil edir və onun aparıcı qüvvələrindən sayılır. Möhkəm ailə isə cəmiyyətin çox mühüm dayaqlarından biridir. Cəmiyyət isə hər şeyə cavabdeh, fərasətli və bacarıqlı, yüksək savad və mədəniyyət, həssas və müdrik olan ananın varlığını tələb edir. ***Azərbaycan qadınlarının milli xüsusiyyətlərini yüksək qiymətləndirən Ulu öndər belə demişdir: "Azərbaycan qadını tarix boyu öz ağlı, zəkası, namusu, qeyrəti, isməti, fədakarlığı, çalışqanlığı, mərdliyi, vətənpərvərliyi ilə millətinə, torpağına olan hədsiz məhəbbəti və gözəlliyi, Azərbaycan xalqının milli xüsusiyyətlərinə sadiqliyi ilə tanınmışdır. Qadın ailə saxlayan bir insandır. Ona görə də, bütün qadınlar bizim cəmiyyətdə çox əhəmiyyətli rol oynayırlar. Mən bunları deyərək qadınların bizim üçün nə qədər əziz olduğunu bir daha bəyan etmək istəyirəm".***[4]

Ümummilli lider Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində Respublikamıza rəhbərliyi dövründə Azərbaycan qadınlarının problemlərinin həllinə, onların ölkənin siyasi, sosial, iqtisadi və mədəni həyatında rolunun artırılması məsələlərinə böyük diqqət ayırmışdır. Ulu öndərin qurucusu olduğu müasir Azərbaycanın inkişafında qadınların rolu əhəmiyyətli dərəcədə artmışdır. Bu prosesdə onların rolunun artırılmasını təmin etmək üçün dövlət səviyyəsində çox mühüm tədbirlər həyata keçiril-

[3] www/lib.aliyevheritage.org/az/5820622.html
[4] www/ lib.aliyevheritage.org/az/5820622.html

mişdir və keçirilməkdə davam edir. Yəni ölkəmizdə insan hüquq və azadlıqlarının, onların tərkib hissəsi kimi gender bərabərliyinin təmin edilməsi daim Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olmuşdur.

Müstəqil Azərbaycanda da qadınların cəmiyyətdəki yeri və rolu dövlətimizin yeritdiyi siyasət sayəsində yüksək qiymətləndirilir. Çağdaş Azərbaycan qadını ana olmaqla yanaşı, həm də bacarıqlı siyasətçi, iş adamı, dövlət məmuru, xalqın səs verdiyi deputatdır. Qadınların cəmiyyətdəki roluna və yerinə, onların dövlət idarəçiliyində təmsil olunmalarına, irəli çəkilmələrinə diqqətlə yanaşan Prezident İlham Əliyev deyir: "Tariximizin hər bir dövründə qadınlarımız cəmiyyətin sarsılmaz mənəvi dayağı olmuş, ölkəmizin bugünki simasının müəyyənləşməsi üçün böyük fədakarlıqlar göstərmişlər. Onlar dünyanın bir çox qabaqcıl ölkələrinin qadınlarından daha əvvəl seçib-seçilmək hüququ sayəsində cəmiyyət həyatının fəal iştirakçısı olmaq imkanı əldə etmişlər. Öz tükənməz enerjilərini və zəkalarının gücünü bütünlüklə vətən, xalq yolunda sərf eləyən qadınlarımız ötən dövr ərzində çoxsaylı nailiyyətlər qazanmışlar. Millilikiə müasirliyin ahəngdar vəhdəti onların zəngin mənəviyyatının ayrılmaz xüsusiyyətidir".[5]

Cəmiyyətin inkişafında qadın hüquqları mövzusu bütün dövrlərdə öz aktuallığı ilə seçilmişdir və müstəqilliyini yaşayan ölkəmizdə həyatımızın bütün sahələrində əldə olunan böyük dönüşlərdə qadınlarımızın da həm töhfəsi, həm də böyük əməyi danılmazdır. Ailədə ana kimi, hərbdə əsgər kimi, dövlətdə məmur, cəmiyyətdə siyasi lider kimi əllərindən gələni əsirgəməyən Azərbaycan qadını hər bir sahədə özünü təsdiqləmişdir. Nəzərə almaq lazımdır ki, qadın ictimai işlə məşğul olmaqla yanaşı anadır, övladlarını həm tərbiyə, həm də cəmiyyətə təqdim edən valideyndir.

[5] www/ president.az/articles/4428



Azərbaycan qadını öz əzəli funksiyası olan analıq vəzifəsini və borcunu da şərəflə yerinə yetirir, vətən üçün milli mənəvi dəyərlərimizin qoruyucuları, milli adət və ənənələrimizin yaşadıcıları olan, nəsillər arasında varisliyi ləyaqətlə davam etdirən övladlar tərbiyə edib yetişdirirlər. O baxımdan, qadının fəaliyyət göstərdiyi ictimai sahə ilə ana olaraq üzərinə düşən məsuliyyət bərabər şəkildə inkişaf etdirilməlidir, onlar bir-birilərinə mane olmamalı, əksinə, kömək etməlidir. Bu mənada ictimai-siyasi cəhətdən fəal qadınlarımızın əməyinə fədakarlıq demək mümkündür. Bu ifadəni məhz Azərbaycan qadınına şamil etmək olar. Çünki fədakarlıq, əzmkarlıq, qayğıkeşlik, mərdlik, qəhrəmanlıq, müdriklik, sədaqət, vəfa, yüksək analıq keyfiyyəti onların milli xüsusiyyətləridir. Prezident İlham Əliyev respublikamızın qazandığı uğurlarda qadınların rolunu yüksək dəyərləndirərək demişdir: "Azərbaycanın qədim və zəngin tarixinin hər səhifəsində qadınlarımızın müdrikliyi, fədakarlığı və qəhrəmanlığının parlaq nümunələri vardır. Respublikamız müstəqilliyini bərpa etdikdən sonra qadınlar sosial fəallıqlarını xeyli artıraraq elm və təhsil, səhiyyə və mədəniyyət sahələrində mühüm nailiyyətlər qazanmışlar. Onlar suveren ölkəmizin dinamik inkişafını təmin edən bütün bu təqdirəlayiq fəaliyyətləri ilə milli dövlət quruculuğu işində öz istedad və bacarığını müvəffəqiyyətlə gerçəkləşdirir, beynəlxalq aləmdə Azərbaycanı layiqincə təmsil edirlər".[6]

Azərbaycan qadınından danışarkən Azərbaycanın Birinci xanımı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın adını xüsusilə qeyd etmək lazımdır. Azərbaycan qadını olaraq öz şəxsiyyətində və fəaliyyətində alicənablıq, kübarlıq, insanpərvərlik kimi insani dəyərləri,

[6] "Azərbaycan" qəzeti, № 53, 7 mart 2010.

Şərq və Qərb ənənələrinin ahəngdar vəhdətini və ülvi xüsusiyyətlərini cəmləşdirmiş Mehriban xanım Əliyeva müasir Şərq qadınını, o cümlədən çağdaş Azərbaycan qadınını təcəssüm etdirərək həm ana, həm də ictimai xadim kimi bütün qadınlarımıza cəmiyyətdə layiqli yer tutmaq nümunəsini göstərir.

Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun Prezidenti kimi Ulu öndərin ideyalarını uğurla həyata keçirir. Azərbaycan mədəniyyətinin təbliği və milli irsimizin qorunması, muğamlarımızın mədəni sərvət kimi bütün dünyada təqdim edilməsi milli-mənəvi dəyərlərimizə bağlılığın, vətənpərvərliyin göstəricisidir.

Mehriban Əliyeva ictimai xadim olmaqla bərabər, həm də fədakar həyat yoldaşı, qayğıkeş ana kimi nəcib və ülvi missiyanı layiqincə yerinə yetirir. Şərəfli qadın adını həmişə uca tutaraq fədakarlığı ilə, mədəniyyətimizə, tariximizə, adət-ənənələrimizə bağlı olan Mehriban xanım Əliyeva bütün Azərbaycan qadınlarının rəğbətini və sevgisini qazanmışdır.

**Açar sözlər:** Azərbaycan qadını, cəmiyyət, milli-mənəvi dəyərlər, qadın bərabərliyi, qadın azadlığı.

**İstifadə edilmiş ədəbiyyat:**

1. L.Mövsümova. Azərbaycan qadını uzaq keçmişdən indiyədək. B., 2002, s.264.
2. www/ heydaraliyev.preslib.az/ Heydər Əliyev. Elektron sənədlər toplusu.
3. www/ lib.aliyevheritage.org/az/5820622.html
4. www/ president.az/articles/44
5. "Azərbaycan" qəzeti, № 53, 7 mart 2010.



**Хумай ЭМИНОВА**

## МЕСТО И ДЕЯТЕЛЬНОСТЬ ЖЕНЩИНЫ В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНСКОМ ОБЩЕСТВЕ

### РЕЗЮМЕ

Статья посвящена анализу места и социальных ролей женщины в обществе.

Проблема женщин с давних времен была самой актуальной проблемой человечества. Азербайджанские женщины всегда возвышали имя нашего народа своим умом, мудростью, верностью, героизмом, высокими материнскими качествами. На всех этапах развития истории Азербайджана женщины, наряду с мужчинами, принимали активное участие в государственном строительстве и принятии политических решений. Автор статьи особо отмечает, что первая леди Азербайджана, первый вице-президент Азербайджанской Республики, президент Фонда Гейдара Алиева, посол доброй воли ЮНЕСКО и ИСЕСКО Мехрибан Алиева, как азербайджанская женщина воплощает в своей личности и деятельности высокие человеческие ценности, такие как благородство, человечность, щедрость, гармоничное единство и возвышенные черты восточных и западных традиций, олицетворяя современную восточную женщину, в том числе современную азербайджанку, и этим показывает пример занятия достойного места в обществе.

**Ключевые слова**: азербайджанская женщина, общество, национальные и моральные ценности, равенство женщин, свобода женщин.

**Humay EMINOVA**

## THE PLACE AND ACTIVITY OF WOMEN IN MODERN AZERBAIJANI SOCIETY

ABSTRACT

The article is devoted to the analysis of place and social roles of women in society. The problem of women has long been the most pressing problem of humanity. Azerbaijani women have always elevated the name of our people with their intelligence, wisdom, loyalty, heroism, high maternal qualities. At all stages of the development of the history of Azerbaijan, women, side by side with men, took an active part in state construction and the adoption of political decisions. The author of the article notes that the First Lady of Azerbaijan, the First Vice-President of the Republic of Azerbaijan, President of the Foundation Heydar Aliyev, Ambassador of UNESCO and ISESCO Mehriban Aliyeva, as the Azerbaijani woman embodies in her character and activity high human values such as nobleness, generosity, harmonious unity and elevated features of eastern and western traditions, showing embodying a modern oriental woman, including the modern Azerbaijani and by this shows an example of a worthy place in society.

**Keywords:** Azerbaijani woman, society, national and moral values, equality of women, freedom of women.



## РЕЗЮМЕ

Основываясь на выводах, следующих из представленного сборника статей, необходимо отметить, что в настоящее время в Азербайджане происходит процесс стремительного развития информационного общества, и корни этого развития тесно связаны с деятельностью великого лидера Гейдара Алиева.

Переход общества на цифровизацию - требование времени, и эти условия открывают беспрецедентные перспективы для развития общества. Процесс ускорился во время пандемии, охватившей сегодня мир, и открылись новые возможности для многих видов деятельности. Проведение различных видов мероприятий, встреч, интервью в видеоформате, онлайн-обучение для обеспечения устойчивости образовательного процесса и т.д. тому пример. Проводимая в стране политика в области цифровых технологий сыграла важную роль в определении оптимальных решений этих проблем, поскольку развитие и применение информационных и коммуникационных технологий всегда было одним из приоритетов Президента Ильхама Алиева. На виртуальной встрече 15 мая в 2020-ом году с руководством CISCO работа, проделанная в этой области в стране, получила высокую оценку.

В представленном вниманию читателей сборнике анализируется целый ряд вопросов, касающихся проблем информационного общества и имеющих важное значение для Азербайджана, а именно: специфические особенности общения в информационном обществе, проблема применения прав и обязанностей человека к роботам, роль виртуализации в социальных процессах, социокультурные изменения в Азербайджане в контексте развития информационных технологий, моральные проблемы, развитие возможностей цифровизации образо-

вания для обеспечения устойчивости и качества образования, место и роль женщин в обществе, а также различные аспекты информационной безопасности в информационном обществе, социологические и социально-психологические проблемы информационного общества и т.д. как основные объекты исследования.

В сборнике в качестве научно-теоретических источников использованы Конституция Азербайджанской Республики, выступления и высказывания Общенационального лидера Гейдара Алиева, распоряжения и приказы Президента Азербайджанской Республики Ильхама Алиева, постановления правительства Азербайджана и Милли Меджлиса, материалы научных форумов и конференций республиканского и международного значения, фундаментальные труды отечественных и зарубежных ученых, связанные с затрагиваемыми темами.